# ALİ VƏ ORTA İXTİSAS TƏHSİLİ SAHƏSİ ÜZRƏ 2011-Cİ İLDƏ GÖRÜLMÜŞ İŞLƏRƏ DAİR HESABAT

Ali və orta ixtisas təhsili şöbəsinin 2011-ci il üçün iş planında aşağıdakı tədbirlərin həyata keçirilməsi nəzərdə tutulmuşdur:

- Ali və orta ixtisas təhsili müəssisələrinə 2011-ci il üçün tələbə qəbulu planının layihəsinin hazırlanması;
- Ali təhsil müəssisələrində 2010/2011-ci tədris ilinin qış və yay imtahan sessiyalarının və buraxılış imtahanlarının nəticələrinin təhlili;
- Ali təhsil müəssisələrində kredit sisteminin tətbiqi vəziyyətinin təhlili;
- Ali və orta ixtisas təhsili müəssisələrinin fəaliyyətini tənzimləyən normativ sənədlərin hazırlanması, müzakirəsi və təsdiqə təqdim olunması;
- «Ali təhsilin magistratura səviyyəsi üzrə ixtisasların (ixtisaslaşmaların) təsnifatı»nın hazırlanması və təsdiqi; Magistr təhsil proqramlarının hazırlanması üçün işçi qruplarının yaradılması;
- «2009-2013-cü illərdə Azərbaycan Respublikasının ali təhsil sistemində islahatlar üzrə Dövlət Proqramı»nda 2011-ci il üçün nəzərdə tutulan tədbirlərin həyata keçirilməsi üzrə hesabatın hazırlanması;
- Ali təhsil müəssisələrinin reytinqini müəyyənləşdirən metodikanın tətbiqi;
- Orta ixtisas təhsili müəssisələrinin veb-portalının yaradılması;
- «Təhsilin əsasları» fənninin tətbiqi ilə bağlı treninqlərin və monitorinqin keçirilməsi;
- Dünya Bankının vasitəsilə Yaponiya hökümətindən alınmış qrant hesabına ali təhsilin islahatı üzrə layihənin hazırlanması;
- Təhsil sahəsində Azərbaycan Respublikasının «Milli ixtisas dərəcələri çərçivəsi»nin (MİDC) hazırlanmasında iştirak etmək;
- Ali təhsilin tarixi və «Təhsil ensiklopediyası» ilə bağlı məlumatların hazırlanması;
- Ali təhsildə yeni maliyyələşmə mexanizminin tətbiqi vəziyyətinin təhlili;
- Orta ixtisas təhsili müəssisələrində tələbələrin biliyinin qiymətləndirilmə-sində çoxballı sistemin tətbiqi barədə Əsasnamə»yə uyğun olaraq eksperimentin davam etdirilməsi və onun əhatə dairəsinin genişləndirilməsi;
- 2011-2012-ci tədris ilindən orta ixtisas təhsili müəssisələrində kredit sisteminin tətbiqi ilə bağlı tədbirlərin həyata keçirilməsi;
- Təhsil Nazirliyinin korrupsiyaya qarşı mübarizə üzrə fəaliyyət planında ali və orta ixtisas təhsil səviyyəsində cari ildə nəzərdə tutulan tədbirlərin həyata keçirilməsinin təşkili və s.

İş planına müvafiq olaraq 2011-ci ildə ali və orta ixtisas təhsilinin təkmilləşdirilməsi istiqamətində müvafiq tədbirlər həyata keçirilmişdir.

**Ali təhsil üzrə:**

***I. Əsas statistik göstəricilər:***

2011-ci ilin əvvəlinə ölkəmizdə 51 ali məktəb fəaliyyət göstərmişdir. Onlardan 36-sı dövlət, 15-i qeyri-dövlət ali təhsil müəssisəsidir.

Təhsil Nazirliyinin tabeliyində 20 ali təhsil müəssisəsi fəaliyyət göstərir.

2011-ci ildə həmin ali məktəblərdə 120488, o cümlədən Təhsil Nazirliyinin tabeliyində olanlarda 98113 nəfər tələbə təhsil almışdır. Onlardan magistratura səviyyəsində müvafiq olaraq 8072 və 7753 nəfər olmuşdur.

2011-ci ildə ali məktəblərdə işçilərin sayı 26094 (professor-müəllim heyəti 13161), o cümlədən Təhsil Nazirliyinin tabeliyində olan ali təhsil müəssisələrində işləyənlərin sayı 20085 nəfər (professor-müəllim heyəti 10051) təşkil etmişdir.

Ali təhsil sistemində 1073 (Təhsil Nazirliyi 831) elmlər doktoru, 5103 (Təhsil Nazirliyi 3713) elmlər namizədi çalışmışdır.

Ali məktəblərə 29975 (Təhsil Nazirliyinin tabeliyində olanlara 24412) nəfər tələbə qəbul olunmuşdur. Onların 3320 (Təhsil Nazirliyinin tabeliyində olanlar 3166) nəfərini magistrlər təşkil edir.

2010/2011-ci tədris ilində Təhsil Nazirliyinin tabeliyində olan ali məktəblərin bakalavriat səviyyəsini 22173, magistratura səviyyəsini 2549 nəfər məzun bitirmişdir.

***II. Görülmüş işlər:***

Cari ildə Azərbaycan Respublikası Nazirlər Kabinetinin müvafiq sərəncamları ilə 2011/2012-ci tədris ili də daxil olmaqla yaxın 3 il ərzində (2012/2013-2015/2016) ali təhsil müəssisələrinin magistratura və bakalavriat səviyyələrinə dövlət sifarişi ilə tələbə qəbulunun proqnozu təsdiq edilmişdir. 2011-ci ildə ali təhsil müəssisələrində yeni (adambaşına) maliyyə mexanizminin tətbiqi davam etdirildiyindən bakalavriat və magistratura səviyyələrinə tələbə qəbulu planı dövlət sifarişi nəzərə alınmaqla tərtib edilmiş və Azərbaycan Respublikası Nazirlər Kabineti tərəfindən təsdiq edilmişdir.

Bakalavriat səviyyəsinin yeni ixtisas təsnifatının təsdiqi ilə bağlı ali təhsilin digər səviyyələrində də siyahıların yenidən hazırlanması zərurəti yaranmışdır. Bu məqsədlə mütəxəssislərin iştirakı ilə «Ali təhsilin magistratura səviyyəsi üzrə ixtisasların (ixtisaslaşmaların) təsnifatı»nın layihəsi hazırlanmış və Nazirlər Kabinetinin 14 iyun 2011-ci il tarixli, 95 №-li qərarı ilə təsdiq edilmişdir. Həmin qərarla «Rezidenturada həkim-mütəxəssis hazırlığı aparılan ixtisasların təsnifatı» da təsdiq olunmuşdur. 2012-ci ildə magistratura səviyyəsinə qəbulun yeni təsnifatlar əsasında aparılması nəzərdə tutulmuşdur.

Eyni zamanda, «Təhsil haqqında» Azərbaycan Respublikasının Qanununun «Ali təhsil pilləsinin dövlət standartı və proqramı»nın həyata keçirilməsi ilə əlaqədar Nazirlər Kabinetinin 23 aprel 2010-cu il tarixli, 75 №-li qərarı ilə təsdiq edilmiş ali təhsilin bakalavriat, magistratura səviyyələrinin, habelə tibb sahəsinin (əsas təhsil və rezidentura) ixtisasları (proqramları) üzrə beynəlxalq tələblərə uyğunlaşdırılmış, məzmunca yeni Təhsil Proqramlarının hazırlanmasına başlanılmışdır. Bu məqsədlə Təhsil Nazirliyinin 12 dekabr 2011-ci il tarixli əmri ilə 8 istiqamətdə işçi qrupları yaradılmışdır.

Ali təhsil müəssisələrində qış və yay imtahan sessiyalarının təşkili və gedişi əvvəlki illərdə olduğu kimi, 2011-ci ildə də diqqət mərkəzində saxlanılmışdır. Belə ki, 2010/2011-ci tədris ilinin qış və yay imtahan sessiyalarının mütəşəkkil keçirilməsi üçün Təhsil Nazirliyinin müvafiq əmrləri olmuşdur. Həmin əmrlərə uyğun olaraq nazirlikdə Mərkəzi Operativ Qərargah (MOQ), «Qaynar xətt», ali və orta ixtisas təhsili müəssisələrində müvafiq qərargahlar yaradılmış, yol verilmiş neqativ halların aradan qaldırılması istiqamətində bir sıra tədbirlər həyata keçirilmişdir. İmtahanların gedişinə nəzarət etmək üçün qeyri-hökumət təşkilatlarının nümayəndələri bu işə cəlb edilmişdir.

Bəzi ali məktəblərdə (məsələn, ADPU, GDU) semestr imtahanları və yekun dövlət attestasiyaları test üsulu ilə kompüter vasitəsilə aparılmışdır.

2010/2011-ci tədris ilində Azərbaycan Dillər Universitetinin təklifi və Təhsil Nazirliyinin razılığı əsasında ADU-da buraxılış işi və yekun dövlət imtahanlarından imtina olunmuş və buraxılış yekun Dövlət Attestasiyası məzunların təlim müddətində tədris, elmi və ictimai fəaliyyətini əks etdirən hesabatların təqdimatı formasında həyata keçirilmişdir. Bu tədbirin 2011/2012-ci tədris ilində də davam etdirilməsi nəzərdə tutulmuşdur.

Şöbə tərəfindən qış və yay imtahan sessiyalarının nəticələrinə dair hesabatlar hazırlanmış, ali təhsil müəssisələrinin tədris işləri üzrə prorektorlarının və tədris şöbələri müdirlərinin iştirakı ilə Ali və orta ixtisas təhsili şöbəsində müzakirə olunmuş və müvafiq qərarlar qəbul edilmişdir.

Bununla yanaşı ali və orta ixtisas təhsili şöbəsi tərəfindən təhsil müəssisələrindən alınmış təkliflər əsasında hər bir ali məktəbin bakalavriat səviyyəsi üzrə dövlət attestasiya komissiyalarının, magistraturada İxtisaslaşdırılmış Şuraların sədrlərinin təsdiqi barədə əmrlər hazırlanmış, dövlət attestasiyalarının və buraxılış işlərinin müdafiəsinin monitorinqi keçirilmişdir.

Ali məktəblərdə kredit sisteminin tətbiqi üzrə toplanmış müsbət təcrübəni, bu sahədə ötən illərdə qarşıya çıxan çətinlikləri və problemləri nəzərə alaraq «Ali təhsil müəssisələrində kredit

sistemi ilə tədrisin təşkili barədə nümunəvi Əsasnamə» yenidən işlənilmiş və təsdiqə təqdim olunmuşdur.

Eyni zamanda, ekspertlərin və ali məktəb prorektorlarının, həmçinin kredit sisteminin tətbiqi ilə məşğul olan şəxslərin iştirakı ilə beynəlxalq konfrans və seminar-müşavirələr keçirilmişdir.

Şöbənin əməkdaşları xarici ölkələrin ali təhsil sahəsində verdiyi ixtisasların tanınması və onların Azərbaycan Respublikasında qüvvədə olan təhsil standartlarına uyğunluğunun müəyyən edilməsi (nostrifikasiyası) prosedurunda yaxından iştirak etmişlər.

Müəllim hazırlığı məsələsi əvvəlki illərdə olduğu kimi, hesabat ilində də diqqət mərkəzində saxlanılmışdır.

Belə ki, Təhsil Nazirliyi tərəfindən təsdiq olunmuş «2008-2015-ci illər üçün Azərbaycan Respublikasında fasiləsiz pedaqoji təhsil və müəllim hazırlığının konsepsiya və strategiyasının həyata keçirilməsi üzrə tədbirlər planı»nda 2011-ci il üçün nəzərdə tutulan tədbirlər əsasən həyata keçirilmişdir.

2008-ci ildən Təhsil Nazirliyinin yanında müstəqil fəaliyyət göstərən məşvərətçi qurum - «**Fasiləsiz pedaqoji təhsil üzrə koordinasiya şurası**» 2011-ci ildə də fəaliyyətini davam etdirmişdir.

Dünya Bankının dəstəyi ilə həyata keçirilən Təhsil Sektorunun İnkişaf Etdirilməsinin (TSİL-in) «**Müəllim hazırlığı» alt komponenti çərçivəsində** ali təhsilin bakalvriat səviyyəsində ibtidai sinif müəllimlərinin hazırlığı üzrə «**Çərçivə kurikulumu**»nun tətbiqi 2011-ci ildə eksperiment şəklində 3 pilot ali təhsil müəssisəsində (Azərbaycan Dövlət Pedaqoji Universiteti, Gəncə Dövlət Universiteti və Azərbaycan Müəllimlər İnstitutu) davam etdirilmişdir.

Azərbaycan Dövlət Pedaqoji Universiteti, Azərbaycan Müəllimlər İnstitutu, Gəncə Dövlət Universitetinin professor-müəllim heyəti üçün 2010/2011-ci tədris ilinin yaz semestrində «Təhsilin əsasları» fənninin tədrisinə dair 24 yanvar 2011-ci il tarixindən başlayaraq 3 həftə ərzində Azərbaycan Müəllimlər İnstitutu və Bakı şəhəri 132-134 nömrəli Təhsil Kompleksinin bazalarında növbəti treninq keçirilmişdir. Bu məqsədlə treninq iştirakçılarının siyahıları və müvafiq proqramlar təsdiq edilmişdir.

«Təhsilin əsasları» fənninin tədrisinin bir mərhələsi (II-III kurslarda) başa çatmış və iki il ərzində qazanılmış təcrübə əsasında fənnin dərs vəsaitinin layihəsi hazırlanmışdır.

Hesabat ilində **«Azərbaycan Respublikasının Milli İxtisas Dərəcələri Çərçivəsi»nin (MİDÇ)** hazırlanması istiqamətində müəyyən işlər görülmüşdür. Belə ki, Beynəlxalq ekspertlə birlikdə MİDÇ-nin işlənib hazırlanması proseduru, prioritetlər, MİDÇ ilə bağlı qərarvermə səlahiyyəti olan qurumların rolu, başlıca texniki məsələlər, MİDÇ və hazırda mövcud olan sistemlər arasında əlaqələr müəyyən edilmiş, təhsil naziri, nazirliyin əlaqədar struktur bölmələrinin rəhbərləri ilə görüşlər keçirilmişdir.

MİDÇ üzrə İşçi qrupun birinci iclası keçirilmiş, iş planı təsdiq edilmişdir. «Milli İxtisas Dərəcələri Çərçivəsi nədir və nə üçün gərəklidir? – mövzusunda təqdimat keçirilmişdir.

Bütün bunları əhatə edən «İlkin hesabat» və Milli ixtisas dərəcələrinin çərçivəsi hazırlanmış və ekspertizadan keçmək üçün Avropa Şurasına təqdim olunmuşdur. Hal-hazırda onlar tərəfindən ekspert təyin olunmuş və yaxında həmin sənəd ekspertizadan keçəcəkdir.

Kollegiyada müzakirəsi nəzərdə tutulan məsələlər üzrə («Ali təhsil müəssisələrində kredit sisteminin tətbiqi vəziyyəti: nəticələr, problemlər» və «2009-2013-cü illərdə Azərbaycan Respublikasının ali təhsil sistemində islahatlar üzrə Dövlət Proqramı»nın icrası ilə bağlı görülmüş işlər və qarşıda duran vəzifələr), monitorinqlər aparılmış və onun nəticələri müzakirə edilmişdir.

Bununla yanaşı kollegiyada müzakirə edilmək üçün «Ali təhsil müəssisələrində yeni maliyyələşmə mexanizminin tətbiqi: görülən işlər, nəticələr və problemlər» mövzusunda arayış hazırlanmışdır.

Arayışda 2010/2011-ci tədris ilindən başlayaraq dövlət sifarişini yerinə yetirən təhsil müəssisələrinə maliyyə vəsaitlərinin dövlət sifarişi ilə təhsil alan tələbələrin sayından asılı olaraq verilməsi, bütün ali təhsil müəssisələrinə dövlət sifarişi ilə mütəxəssis hazırlığında iştirak etmək

imkanı yaradılması, bu sistemdə ali məktəbə qəbul olan abituriyentin təhsili üçün nəzərdə tutulan vəsaitin həmin ali təhsil müəssisəsinin hesabına köçürülməsi, yeni maliyyələşmə mexanizminin əsas məqsədləri qeyd edilmişdir.

Əvvəlki illərdə olduğu kimi 2010/2011-ci tədris ilində də ali məktəblərə qəbul olunmuş tələbələrə **Prezident təqaüdünün** verilməsi haqqında ölkə Prezidentinin sərəncamı olmuşdur. Həmin sərəncama uyğun olaraq 102 nəfər tələbəyə Prezident təqaüdünün verilməsi barədə nazirliyin müvafiq əmri olmuş və həmin əmr icra üçün ali təhsil müəssisələrinə göndərilmişdir.

Hesabat ilində qış və yay imtahan sessiyalarında yuxarı kurslarda (II-IV) təhsil alan Prezident təqaüdçülərinin müvəffəqiyyət göstəriciləri barədə ali məktəblərin təklifləri alınmış və təqaüdün verilməsinin davam etdirilməsi haqqında nazirliyin müvafiq əmrləri olmuşdur.

«**2009-2013-cü illərdə Azərbaycan Respublikasının ali təhsil sistemində islahatlar üzrə Dövlət Proqramı**» üzrə işlər davam etdirilmiş.

Belə ki, hesabat ilində **D**ünya Bankının vasitəsilə **Yaponiya hökumətindən alınmış qrant hesabına ali təhsildə keyfiyyətin təmin olunması, idarəetmənin və iqtisadiyyatın təkmilləşdirilməsi istiqamətində** işlər görmək üçün müvafiq layihənin hazırlanması nəzərdə tutulmuşdur. Geniş müzakirələrdən sonra aşağıdakı istiqamətləri əhatə edən layihənin hazırlanması qərara alınmışdır:

- ali təhsildə keyfiyyətin təmin olunması;
- ali təhsil müəssisələrində idarəetmənin təkmilləşdirilməsi;
- qrantların ayrılması mexanizminin müəyyənləşdirilməsi;

Həmin layihənin hazırlanması ilə bağlı bir sıra işlər görülmüşdür. Belə ki, hər bir istiqamət üzrə beynəlxalq və milli məsləhətçilər seçilmiş, onlarla bir neçə dəfə görüşlər keçirilmişdir. Ali təhsil müəssisələrindəki vəziyyəti öyrənmək məqsədilə ekspertlər müxtəlif ali məktəblərdə görüşlər keçirmiş və burada anket sorğusu apararaq mövcud vəziyyət barədə məlumatlar toplamışlar.

**«Ali təhsilin keyfiyyətinin təmin edilməsi» (ATKT)** istiqaməti üzrə layihənin hazırlanmasına dair təkliflərin formalaşdırılmasında şöbənin əməkdaşları iştirak etmiş, beynəlxalq və milli məsləhətçilərlə birgə:

- Həm Avropa ölkələri və ABŞ-ın aparıcı universitetləri ilə müqayisə edilə biləcək nəticələri əldə edən Xəzər və Qafqaz Universitetlərinin, həm də ali təhsilin keyfiyyətinin təminatı sisteminin formalaşmasının ilkin mərhələsində olan ali təhsil müəssisələrinin (Azərbaycan Dillər Universiteti, Sumqayıt Dövlət Universiteti, Azərbaycan Texniki Universiteti, Azərbaycan Dövlət Pedaqoji Universiteti, Odlar Yurdu Universiteti) birinci şəxsləri ilə keçirilmiş görüş və müzakirələrin təhlili aparılmışdır.
- Ali təhsilin keyfiyyət məsələlərinə dair bir sıra təşkilat və strukturlarında (Məsələn, Təhsil Nazirliyinin Akkreditasiya şöbəsi, Tələbə Qəbulu üzrə Dövlət Komissiyası, Keyfiyyət Assosasiyası və s.) keçirilən görüş və müzakirələrdə informasiyalar toplanmış və müvafiq hesabatlar hazırlamışlar.
- Azərbaycan və Boloniya prosesinə qoşulmuş digər ölkələrdə, həmçinin Amerika Birləşmiş Ştatlarında ali təhsilin keyfiyyətinə aid olan məlumatlar əldə edilmişdir.

Layihəyə daxil olunacaq **ali təhsil müəssisələrində idarəetmənin təkmilləşdirilməsi** istiqaməti üzrə də bir sıra işlər görülmüşdür. Belə ki, beynəlxalq və milli məsləhətçilər müəyyənləşdirilmiş, onlar tərəfindən ali təhsilin idarə olunması ilə bağlı bir sıra sənədlər təhlil edilmiş, Təhsil Nazirliyinin, Bakıda yerləşən 7 universitetin rektor və rəhbər işçiləri ilə görüşlər həyata keçirilmişdir. Görüşlər çərçivəsində təhsil müəssisələrinin muxtariyyət, maliyyələşdirilmə mənbələri, keyfiyyətə nəzarət sisteminin strukturu məsələləri müzakirə edilmiş və beynəlxalq məsləhətçilər tərəfindən müvafiq hesabatlar hazırlanmışdır. Bu istiqamət çərçivəsində həmçinin ali təhsilin idarə olunmasına dair məlumat sisteminin yaradılması məsələləri üzrə də beynəlxalq məsləhətçi müəyyənləşdirilmişdir. Məsləhətçi Ali və orta ixtisas təhsili və Təhsilin İdarəolunmasının Məlumat Sistemi şöbələrində görüşlər keçirmiş, Azərbaycan Dillər Universitetində olmuş və onun ATM-ATİMS üzrə pilot universitet kimi müəyyənləşdirilməsi

məsələlərini nəzərdən keçirmişdir. Eyni zamanda Ali təhsilin idarə olunmasınanda məlumat sisteminin yaradılması haqqında ilkin hesabat hazırlanmışdır. Hesabatda terminologiya, layihənin təqdim olunması, ATİMS-in tərtibatı, proqram təminatının texniki şərtləri və tələbləri, keyfiyyətə nəzarət sistemi və əsas icra göstəriciləri, məlumatların toplanması üzrə metodologiya, tədbirlər planı, layihənin təşkilati strukturu, gələcək mərhələlərdə görüləcək işlərin qrafiki, tövsiyələr və s. öz əksini tapmışdır.

**«Qrantların ayrılması mexanizminin müəyyənləşdirilməsi»** istiqaməti üzrə də iş aparılmışdır. Həmin istiqamət üzrə də beynəlxalq və milli məsləhətçilər işə cəlb olunmuşdur. Mövzu ilə bağlı mövcud sənədlər və hesabatlar müzakirə olunmuş, beynəlxalq miqyasda müsabiqəli maliyyələşməyə dair müxtəlif yanaşmaları (xüsusilə ABŞ və Qərbi Avropa ölkələri kimi müsabiqəli maliyyələşmə sisteminə malik olan ölkələrin təcrübəsi) əks etdirən seminar keçirilmişdir.

Seminarın nəticəsi olaraq «layihələrin növləri (tədbirlərin növləri, büdcə həcmi)», «Proqramın uyğunluq meyarları», «Seçim əməliyyatı və meyarlar», «Müxtəlif maraqlı tərəflərin vəzifə və funksiyaları» adlı sənədlərin ilkin variantları üzərində iş aparılmışdır.

Bununla yanaşı müvafiq Dövlət Proqramının icrası ilə bağlı islahat istiqamətləri üzrə yaradılmış işçi qruplarının 2011-ci il üçün iş planları təsdiq olunmuş və planda nəzərdə tutulan tədbirlərin həyata keçirilməsinə şöbə tərəfindən nəzarət edilmişdir. Belə ki, zəruri normativ-hüquqi sənədlər hazırlanmış və Nazirlər Kabineti tərəfindən təsdiq olunmuşdur. Proqramın «Ali təhsilin məzmunu və təlim texnologiyaları» bölümündə nəzərdə tutulmuş tədbirlərin həyata keçirilməsi davam etdirilir. Ali təhsil müəssisələrində tədris prosesinin kredit sistemi əsasında qurulması ilə bağlı müvafiq təkmilləşdirilmələr aparılmışdır. Bu mövzu ilə bağlı simpozium, konfrans, seminarların keçirilməsi davam etdirilmişdir. Məsələn, 2011-ci ilin noyabrında Gəncə Dövlət Universitetində «Avropa kredit transfer sisteminə keçidlə bağlı problemlər, akkreditasiya məsələləri və Bolonya təhsil prosesi» mövzusunda elmi-praktik konfrans; Azərbaycan Dövlət Pedaqoji Universitetində «Təhsilin əsasları» fənninin tədrisi: problemlər və perspektivlər» mövzusunda elmi-praktik konfrans; Açıq Cəmiyyət İnstitutu, Azərbaycan Müəllimlər Birliyi və Azərbaycan Avrointeqrasiya Milli İctimai Komitəsi ilə birgə «Müəllim hazırlığında yeni forma, metod və üsullar: Şərqi Avropa təcrübəsi» beynəlxalq konfransı və s. keçirilmişdir.

Ali təhsil müəssisələrində kurikulum və qiymətləndirmə mərkəzlərinin yaradılması işi davam etdirilmişdir. Belə ki, Azərbaycan Dövlət Pedaqoji Universitetində Kompüter mərkəzi, Azərbaycan Dövlət Neft Akademiyasında Virtual universitet və tədris mərkəzi, Azərbaycan Texniki Universitetində İnformasiya tədris mərkəzi və elektron universitet, Bakı Dövlət Universitetində Elektron tədris qiymətləndirmə mərkəzi, Azərbaycan Dövlət İqtisad Universitetində Qeydiyyat və qiymətləndirmə mərkəzi və s. təşkil edilmişdir. Bütün bu qurumların yaradılmasında şöbənin əməkdaşları yaxından iştirak etmiş və təhsil müəssisələrinə müvafiq köməklik göstərmişlər.

Bütün ali təhsil müəssisələri proqramın tələblərinə uyğun olaraq öz strateji inkişaf proqramlarını hazırlamış və burada nəzərdə tutulan tədbirlərin həyata keçirilməsini təmin etmişlər. Ali təhsil müəssisələrində idarəetmə strukturların təkmilləşdirilməsi istiqamətində də müəyyən işlər görülmüşdür. Belə ki, beynəlxalq məsləhətçi tərəfindən ali məktəblərdə Qəyyumlar şurasının yaradılması, həmin şuranın vəzifə və məqsədləri barədə təkliflər hazırlanmışdır. Ali təhsil müəssisələrində menecer sisteminin və buna müvafiq strukturların yaradılması üçün universitetlər bir sıra qrant layihələrinə qoşulmuşlar. Ali təhsil müəssisələri həmçinin məzun yarmarkaları təşkil etmiş və respublikada keçirilər «Təhsil və karyera» sərgilərində fəal iştirak etmişlər.

Ali təhsil müəssisələri maddi-texniki bazalarının möhkəmləndirilməsi istiqamətində də işləri davam etdirmiş. Belə ki, Bakı Dövlət, Azərbaycan Dövlət İqtisad, Naxçıvan Dövlət Universitetilərində, Bakı Musiqi və Azərbaycan Dövlət Neft Akademiyalarında əsaslı təmir işləri həyata keçirilmiş, yeni kabinet və laboratoriyalar yaradılmış, onlar İKT, müasir cihaz və avadanlıqlarla təchiz olunmuşlar.

Ali təhsil müəssisələrinin reytinqini müəyyənləşdirən metodika təkmilləşdirilmiş və yeni metodikaya uyğun ali təhsil müəssisələrinin reytinq cədvəli tərtib edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin «Təhsil haqqında» Qanunun tətbiq edilməsi barədə 5 sentyabr 2009-cu il tarixli 156 saylı Fərmamına və buna müvafiq Nazirlər Kabinetinin 17 sentyabr 2009-cu il tarixli 247 saylı Sərəncamına uyğun olaraq 2011-ci ildə də **normativ-hüquqi sənədlərin hazırlanması** işi davam etdirilmişdir. İl ərzində aşağıdakı sənədlər hazırlanmışdır:

- «Ali təhsil müəssisələrində kafedra müdiri, dekan və dekan müavini vəzifələrinin tutulması qaydaları (Azərbaycan Respublikası Təhsil Nazirliyinin 09 mart 2011-ci il tarixli, 400 №-li əmri ilə təsdiq edilmişdir).
- «Ali təhsil müəssisəsinin Nümunəvi Nizamnaməsi» (Nazirlər Kabinetinin 21 yanvar 2011-ci il tarixli, 9 №-li qərarı ilə təsdiq olunub).
- «Ali təhsilin magistratura səviyyəsi üzrə ixtisasların (ixtisaslaşmaların) təsnifatı» (Nazirlər Kabinetinin 14 iyun 2011-ci il tarixli, 95 №-li qərarı ilə təsdiq olunub).
- «Rezidenturada həkim-mütəxəssis hazırlığı aparılan ixtisasların Təsnifatı» (Nazirlər Kabinetinin 14 iyun 2011-ci il tarixli, 95 №-li qərarı ilə təsdiq olunub).
- «Ali təhsil müəssisəsinin Elmi Şurası haqqında Əsasnamə» (layihə).
- «Ali təhsil müəssisəsinin fakütləsi və onun Elmi Şurası haqqında Əsasnamə (layihə);
- Ali məktəbin kafedrası haqqında Əsasnamə (layihə);
- Ali təhsil müəssisələrində professor-müəllim vəzifələrinin tutulması qaydaları (layihə);
- Ali məktəb tələbələrinin köçürülməsi, tələbələr sırasından xaric edilməsi və bərpa olunması, akademik məzuniyyət alması haqqında Əsasnamə (layihə);
- Professor-müəllim heyətinin tədris işlərinin növləri üzrə vaxt normaları (layihə);
- Kredit sistemi üzrə tədrisin təşkili qaydaları (layihə);
- İmtahan sessiyalarının təşkili, tələbələrin biliyinin cari və aralıq qiymətləndirilməsi qaydaları (layihə);
- Ali təhsil müəssisələri tələbələrinin bakalavriat səviyyəsində buraxılış yekun attestasiyası haqqında əsasnamə (layihə);
- Ali məktəbin bakalavriat səviyyəsində buraxılış işlərinin hazırlanması qaydaları (layihə);
- Magistrlik dissertasiyalarının müdafiəsi üçün ixtisaslaşdırılmış Şuraların yaradılması və onun işinin təşkili qaydaları (layihə);
- Magistrlik dissertasiyasının hazırlanması, təqdim edilməsi və müdafiəsi qaydaları haqqında əsasnamə (layihə);
- Təkrar ali və orta ixtisas təhsili almaq haqqında əsasnamə (layihə);
- Rezidenturada həkim-mütəxəssis hazırlığının məzmununa və səviyyəsinə qoyulan minimum dövlət tələbələri;
- Magistr təhsil proqramının strukturu (layihə).

Respublika müdafiə sənayesi kompleksinin yüksək ixtisaslı kadrlara olan tələbatının ödənilməsi məqsədilə Təhsil Nazirliyinin aidiyyəti nazirliklərlə razılaşdırılmış təklifini nəzərə alaraq Nazirlər Kabinetinin 7 iyun 2011-ci il tarixli, 91 №-li qərarı ilə Azərbaycan Texniki Universitetində (AzTU) «**Xüsusi texnika və texnologiya**» **fakültəsi** yaradılmış və bununla bağlı Təhsil Nazirliyinin 6 iyul 2011-ci il tarixli əmri olmuşdur.

Nazirlər Kabinetinin qərarının və təhsil nazirinin əmrinin icrasını təmin etmək məqsədilə ATU-da Müdafiə Sənayesi Nazirliyi əməkdaşlarının da daxil olduğu işçi qrupu təşkil edilmişdir. İşçi qrupu «**Xüsusi texnika və texnologiya fakültəsinin Əsasnaməsi**»ni hazırlamışdır.

Eyni zamanda Azərbaycan Respublikası Nazirlər Kabinetinin 31 oktyabr 2011-ci il tarixli, 177 №-li qərarı ilə bakalavriat və magistratura səviyyələri üzrə müvafiq ixtisasların (ixtisaslaşmaların) Təsnifatı təsdiq olunmuş, 2012/2013-cü tədris ili üçün 75 nəfər həcmində tələbə qəbulu planının layihəsi Təhsil Nazirliyinə təqdim olunmuşdur.

Şöbənin əməkdaşları Azərbaycanda ali təhsilin tarixi və təhsil ensiklopediyasına dair məlumatların hazırlanmasında yaxından iştirak etmişlər.

Azərbaycan Respublikasında ali təhsildə aparılan islahatları təbliğ etmək, bu sahədə mütəxəssis və müəllimlərin iş təcrübələrini yaymaq, aparılan elmi-tədqiqatların nəticələrinin təhsil prosesində tətbiqinə nail olmaq, Bolonya prosesi çərçivəsində ali təhsilin Avropa məkanına inteqrasiyası ilə bağlı məlumatları, bu sahədə olan yerli və beynəlxalq təcrübə barədə məqalələri dərc etmək və bununla da maarifləndirmə işlərini gücləndirmək məqsədilə Təhsil Nazirliyinin 28 oktyabr 2011-ci il tarixli əmri ilə «**Ali təhsil və cəmiyyət» elmi-metodik jurnalı** təsis olunmuş, onun Nizamnaməsi təsdiq edilmişdir.

«Ali təhsil və cəmiyyət» jurnalının ilk nömrəsinin 2012-ci ilin yanvar ayında çıxması nəzərdə tutulmuşdur.

Hesabat dövründə şöbə əməkdaşlarının iştirakı ilə aşağıdakı **respublika və beynəlxalq konfransları** keçirilmişdir:

- Bakı şəhərində «Şərq tərəfdaşlığı ölkələrində müəllimlərin hazırlanması və ixtisasın artırılması» mövzusunda beynəlxalq seminar. 13-14 oktyabr 2011.
- Azərbaycan Müəllimlər İnstitutunda «Müəllim hazırlığının müasir problemləri» mövzusunda Beynəlxalq elmi-praktik konfrans. Oktyabr – 2011.
- Azərbaycan Dillər Universitetində «Xarici dillərin tədrisinin aktual problemləri» mövzusunda IV Respublika konfransı. May – 2011.
- Azərbaycan Dövlət Aqrar Universitetində qeyri-hökumət təşkilatları ilə birgə qərb rayonları təhsil işçilərinin «Təhsildə şəffaflıq və cavabdehlik» mövzusunda Regional konfransı. Gəncə şəhəri, 26 aprel 2011-ci il.

**Orta ixtisas təhsili üzrə:**

***I. Əsas statistik göstəricilər:***

2011-ci hesabat ilində Azərbaycanda 56 (55 dövlət, 1 qeyri-dövlət) orta ixtisas təhsili məktəbi fəaliyyət göstərmişdir. Təhsil Nazirliyinin tabeliyində 45, Səhiyyə Nazirliyinin tabeliyində 7, Mədəniyyət və Turizm Nazirlyinin tabeliyində 2, Azərittifaqın tabeliyində 1, Fövqəladə Hallar Nazirliyinin tabeliyində 1 kollec fəaliyyət göstərir.

Orta ixtisas təhsili müəssisələri respublikanın regionları üzrə, aşağıdakı kimi paylanmışdır: Bakı şəhərində 23, Naxçıvanda 3, Sumqayıtda 3, Gəncədə 4, Şəkidə 4, Şuşada (hal-hazırda Bakı şəhərində yerləşən) 2, Mingəçevirdə 2, Şamaxıda 2, Ağdamda 2, Şirvanda 1, Bərdədə 1, Zaqatalada 1, Ağdaşda 1, Qazaxda 1, Lənkəranda 1, Tovuzda 1, Sabirabadda 1, Astarada 1, Ağcabədidə 1, Qubada 1, Göyçayda 1 orta ixtisas təhsili müəssisəsi vardır.

Kolleclərdən 16-sı texniki və texnoloji, 18-i iqtisadiyyat və humanitar, 6-sı pedaqoji, 10-u mədəniyyət və incəsənət, 7-si tibb profillidir.

2011-ci ildə ölkəmizin orta ixtisas təhsili müəssisələrində 115 ixtisas üzrə 51681 tələbə təhsil almışdır. Onların təlim-tərbiyəsi ilə 7013 müəllim məşğul olmuşdur. Təhsil Nazirliyinin tabeliyində olan orta ixtisas məktəbləri üzrə isə həmin ildə tələbələrin sayı 44133 nəfər, müəllimlərin sayı isə 5517 nəfər olmuşdur.

2010/2011-ci tədris ilində Təhsil Nazirliyinin tabeliyində olan orta ixtisas təhsili müəssisələrinin 14955 plan yerinə 12232 nəfər tələbə qəbul olunmuşdur.

Həmin ildə orta ixtisas təhsili müəssisələrini 13816 nəfər, o cümlədən Təhsil Nazirliyinin tabeliyində olan təhsil müəssisələrini 11325 nəfər məzun bitirmişdir.

***II. Görülmüş işlər:***

«Təhsil haqqında» Azərbaycan Respublikası Qanununun 21-ci maddəsinə görə orta ixtisas təhsilinin əsasən kolleclərdə, ali təhsil müəssisələrinin nəzdində yaradılan müvafiq stukturlarda həyata keçirilməsi və məzunlara subbakalavr dərəcəsinin verilməsi nəzərdə tutulmuşdur. Bununla bağlı əvvəlki illərdə bir sıra normativ-hüquqi sənədlər işlənib hazırlanmış və təsdiq olunmuşdur, 2011-ci ildə təhsilin bu pilləsinin fəaliyyətini tənzimləyən yeni normativ sənədlərin hazırlanması işi davam etdirilmiş və aşağıdakı sənədlər hazırlanmışdır:

- Orta ixtisas təhsili müəssisəsinin Nümunəvi Nizamnaməsi (Nazirlər Kabineti 14 yanvar 2011-ci il tarixli, 7 №-li qərarı ilə təsdiq edilmişdir).
- Orta ixtisas təhsili müəssisələrinin - kolleclərin fənn birləşmə komissiyaları haqqında Əsasnamə (layihə).
- Orta ixtisas təhsili müəssisələrinin şöbələri haqqında Əsasnamə (layihə).
- Orta ixtisas təhsili müəssisələrinin - kolleclərin pedaqoji şurası haqqında Əsasnamə (layihə).

«Təhsil haqqında» Azərbaycan Respublikasının Qanunu təhsilin bütün sahələrində olduğu kimi, orta ixtisas təhsilində də islahatların aparılmasını tələb edir. Bunu nəzərə alaraq orta ixtisas təhsili sisteminin müasir tələblər səviyyəsində inkişaf etdirilməsi, ölkə iqtisadiyyatının inkişaf istiqamətlərinə əsasən əmək bazarının tələbatına uyğun olaraq istehsal və xidmət sahələrinin yüksək keyfiyyətli orta ixtisaslı kadrlarla təmin edilməsi məqsədi ilə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 13 yanvar 2010-cu il tarixli 6 saylı qərarı ilə təsdiq olunmuş «2010-2013-cü illərdə Azərbaycan Respublikasının orta ixtisas təhsili sistemində islahatlar üzrə Tədbirlər Proqramı»nda nəzərdə tutulan tədbirləri uğurla həyata keçirmək üçün orta ixtisas təhsili müəssisələrində mövcud vəziyyətin öyrənilməsi zəruriyyəti yaranmışdı. Bu məqsədlə müvafiq təhsil müəssisələrində monitorinqin aparılması qərara alınmış və Təhsil Nazirliyinin 22 sentyabr 2010-cu il tarixli 1249 saylı əmri ilə işçi qrupu yaradılmışdır.

Təhsil müəssisələrinin mövcud vəziyyəti barədə məlumatları əldə etmək üçün işçi qrupu tərəfindən müvafiq formalar hazırlanmış və yerlərə çatdırılmışdır. Orta ixtisas təhsili müəssisələri tərəfindən həmin formalara uyğun təqdim olunmuş məlumatlar təhlil edilmiş, yerlərdə dəqiqləşdirmələr aparılmışdır. «Orta ixtisas təhsili müəssisələrində monitorinqin nəticələri barədə» məsələ nazirliyin kollegiya iclasında müzakirə edilmişdir.

Qeyd olunanları nəzərə alaraq kollegiya orta ixtisas təhsili müəssisələrinə bir sıra tapşırıqlar (*hər bir kollecin «İnkişaf proqramı»nın hazırlanması, adambaşına maliyyələşdirmə prinsipinin tətbiqinə dair müvafiq təşkilatlar qarşısında vəsatət qaldırılması və s.*) vermişdir. Kollegiya qərarına uyğun olaraq hüquqi-normativ sənədlərin tələblərinə əməl etmədiklərinə və işlərində buraxdıqları nöqsanlara görə bəzi orta ixtisas təhsili müəssisələrinin rəhbərlərinə qarşı müvafiq intizam tədbirləri görülmüşdür.

«Orta ixtisas təhsili müəssisələri tələbələrinin biliyinin qiymətləndirilməsinin çoxballı sistemi haqqında müvəqqəti əsasnamə»yə uyğun olaraq 2008-ci ildən eksperiment şəklində tətbiqinə başlanılmış bu qiymətləndirmə sistemi 2011-ci ildə də davam etdirilmişdir. Bununla əlaqədar olaraq şöbənin əməkdaşları orta ixtisas təhsili müəssisələrində olmuş, bu sistemin tətbiqi vəziyyətini öyrənmiş, müəllim və tələbələrə lazımi metodiki köməklik göstərmişlər.

İş planına müvafiq olaraq orta ixtisas təhsili pilləsində tədrisin kredit sistemi ilə təşkili barədə əsasnamə layihəsi hazırlanmışdır.

Əvvəlki illərdə olduğu kimi, 2011-ci ildə də orta ixtisas təhsili müəssisələrinə həm əsas, həm də orta təhsil bazasından tələbə qəbulu planı hazırlanmışdır. Plan tərtib edilərkən orta ixtisas təhsili müəssisələrinin təklifləri, hər bir ixtisas üzrə nazirlik və təşkilatlardan alınmış tələbat haqqında məlumat, ötən ildəki tələbə qəbulunun nəticələri nəzərə alınmışdır. Orta ixtisas təhsili üzrə hazırlanmış qəbul planının layihəsi Azərbaycan Respublikası Nazirlər Kabineti tərəfindən təsdiq edilmişdir.

2010/2011-ci tədris ilində orta ixtisas təhsili müəssisələrində imtahan sessiyasının təşkili və gedişi şöbənin diqqət mərkəzində saxlanılmışdır. Belə ki, bütün təhsil müəssisələrində qərargahlar yaradılmış və həmin qərargahlar Təhsil Nazirliyinin «Mərkəzi operativ qərargah»ı ilə əlaqəli fəaliyyət göstərmişdir.

Hesabat ilində orta ixtisas təhsili müəssisələrində buraxılış yekun Dövlət Attestasiya Komissiyaları sədrlərinin seçilib təyin olunması işi davam etdirilmişdir.

2011-ci ildə orta ixtisas təhsili müəssisələrində 65 yaş həddi ilə əlaqədar olaraq çoxlu sayda vakant müəllim yerləri yaranmışdır. Həmin yerləri tutmaq üçün Təhsil Nazirliyi tərəfindən müsabiqə elan olunmuş və ilk dəfə olaraq müəllimlər işə test imtahanları verməklə götürülmüşlər.

Hesabat dövrünndə Nümunəvi Nizamnaməyə uyğun hazırlanmış bir sıra kolleclərin təqdim etdikləri Nizamnamə layihələrinə baxılmış və rəy verilmişdir.

Şöbənin əməkdaşları tərəfindən Təhsil Nazirliyində hazırlanan «Təhsilin tarixi» və «Təhsil ensiklopediyası»na orta ixtisas təhsili müəssisələri ilə əlaqədar daxil ediləcək məlumatlar hazırlanmışdır.

Şöbənin iş planına uyğun olaraq Azərbaycan Respublikası Təhsil Nazirliyinin «Şəffaflığın artırılması və korrupsiyaya qarşı mübarizə üzrə Milli Strategiya»nın həyata keçirilməsi ilə bağlı Fəaliyyət Planında (2007-2011-ci illərdə) ali və orta ixtisas təhsili sahəsində 2011-ci il üçün nəzərdə tutulan tədbirlər əsasən həyata keçirilmişdir.

Bununla bağlı təhsildə şəffaflığın təmin olunması, cavabdehlik hissinin gücləndirilməsi, məsuliyyətin artırılması məqsədilə qış və yay imtahan sessiyaları dövründə tələbələr arasında anket sorğuları keçirilmiş, nəticələr müzakirə olunmuş, nazirliyin «Qaynar xətt» xidmətinə ali və orta ixtisas təhsili ilə bağlı daxil olan 300-dən çox müraciət şöbə əməkdaşları tərəfindən araşdırılmış və cavablandırılmışdır.